AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

# SƏRƏNCAM

№ 100/197

Bakı şəhəri «21» 11 2016-cı il

**"Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamənin təsdiq edilməsi barədə**

"Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 nömrəli Sərəncamının 4.2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə:

1. "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. Dövlət Gömrük Komitəsinin sisteminə daxil olan gömrük orqanlarının rəhbərləri bu sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsini təmin etsinlər.
3. İşlər İdarəsi (Rizvan Mustafayev) sərəncamın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Sədr** **Aydın Əliyev**

**Azərbaycan Respublikası**
**Dövlət Gömrük Komitəsinin**
**2016-cı il 21.11. tarixli**
**197 nömrəli sərəncamı ilə**
**təsdiq edilmişdir.**

# Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında Əsasnamə

## 1. Ümumi müddəalar

1.1. Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 saylı Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2.1-ci bəndinə əsasən hazırlanmışdır və gömrük orqanları ilə xarici iqtisadi əlaqələr iştirakçıları arasında əməkdaşlıq mexanizmlərini müəyyən edir.

1.2. Gömrük qanunvericiliyinin tələblərinin, o cümlədən xarici əlaqələr iştirakçılarının beynəlxalq ticarət sahəsində öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi, qanunvericiliyə edilmiş dəyişikliklərin izah və şərh edilməsi, qaldırılan məsələlərlə bağlı müzakirələrin aparılması və bununla da gömrük xidməti ilə biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədi ilə Dövlət Gömrük Komitəsi aparatında və Komitə sisteminə daxil olan gömrük orqanlarında gömrük orqanlarının və müxtəlif sahələr üzrə sahibkarlıq subyektlərinin nümayəndələrindən ibarət İctimai şuraları (bundan sonra İctimai şuralar) yaradılır.

## 2. İctimai şuraların əsas məqsəd və vəzifələri

2.1. İctimai şuraların əsas məqsədi aşağıdakılardan ibarətdir:

- xarici iqtisadi fəaliyyətin inkişaf etdirilməsinə yardım göstərilməsi;
- beynəlxalq ticarətə cəlb olunan tərəflərin rolunun artırılması;
- mal dövriyyəsinin sürətlənməsinə köməklik göstərilməsi;
- Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təminatlı qorunmasının təmin edilməsinə töhfə verilməsi;

- gömrük tənzimlənməsi və onun həyata keçirilməsi mexanizminin təkmilləşdirilməsi üzrə təkliflərin müzakirəsi;
- xarici iqtisadi fəaliyyət iştirakçıları və gömrük orqanları arasında yaranan problemlərin araşdırılması;
- iş adamları və biznes strukturları arasında gömrük işi sahəsində hüquq mədəniyyətinin səviyyəsinin artırılması.

2.2. İctimai şuraların əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi məqsədilə təkliflərin hazırlanması;
- beynəlxalq ticarət zəncirində təhlükəsizlik tədbirlərinin təmin edilməsində qarşılıqlı fəaliyyətin aparılması;
- xarici ticarətin inkişafına yardım göstərilməsi məqsədilə məsləhətləşmələrin aparılması;
- gömrük orqanları, xarici iqtisadi fəaliyyət iştirakçıları, maliyyə nəzarəti və digər nəzarət orqanları arasında sıx əməkdaşlığın inkişaf etdirilməsi;
- öz səlahiyyətləri çərçivəsində xarici iqtisadi fəaliyyət iştirakçılarına hüquq və informasiya sahəsində köməkliyin göstərilməsi, onlara gömrük işinə dair xarici ticarət üzrə Azərbaycan Respublikası qanunvericilik aktları sahəsində şərhlərin və məsləhətlərin verilməsi;
- beynəlxalq ticarətdə əlavə inzibati maneələrin müəyyən edilməsi və bu məsələlərdə təkmilləşdirmə aparılması məqsədilə təkliflərin hazırlanması;
- informasiya texnologiyalarının tətbiqinin daha da inkişaf etdirilməsi məsələlərinin öyrənilməsi və təkliflərin hazırlanması;
- əqli mülkiyyət hüquqlarının qorunması məsələlərində əməkdaşlığın təşkil edilməsi;
- Azərbaycan Respublikasının beynəlxalq səviyyədə maraqlarının qorunması və xarici ticarət fəaliyyətlərinin qabaqcadan proqnozlaşdırılmasının və təminatının artırılması məqsədilə təkliflərin hazırlanması;
- xarici fəaliyyət iştirakçılarının hüquq və qanuni maraqlarının qorunması.

## 3. ictimai şuranın reqlamenti

3.1. İctimai şuralar bu Əsasnamənin tələblərini rəhbər tutaraq öz işlərinin reqlament əsasında qurur.

3.2. Reqlamentdə İctimai şuralar fəaliyyətini əhatə edən aşağıdakı məsələlər əksini tapır:

- İctimai şuraların iş planları;
- İctimai şuraların iclaslarına çıxarılan materiallar;
- İclasların keçirilmə qaydaları;
- İctimai şuraların qərarlarının rəsmiləşdirilməsi və həyata keçirilməsi;
- İctimai şuraların tərkiblərində komissiyaların yaradılması.

3.3. İctimai şuralar könüllü, özünüidarə, müstəqillik və öz səlahiyyətləri çərçivəsində qərar qəbul etmək prinsipi əsasında fəaliyyət göstərirlər.

3.4. İctimai şuraların fəaliyyətləri ictimai əsaslarda həyata keçirilir.

3.5. Dövlət Gömrük Komitəsi aparatında yaradılan İctimai şuranın üzvlərinin siyahısı DGK-nın Sədrinin, gömrük orqanlarında yaradılan İctimai şuraların üzvlərinin siyahısı gömrük orqanlarının rəislərinin əmrləri ilə təsdiqlənir və İctimai şuraların işinin aparılması üçün müəyyən olunur.

## 4. İctimai şuraların hüquqları

4.1. Öz vəzifələrinin həyata keçirilməsi məqsədilə İctimai şuralar:

- Dövlət Gömrük Komitəsi və gömrük orqanlarının rəhbərliyinə baxılması üçün analitik və informasiya materialları və digər sənədlər əsasında təkliflər hazırlayırlar;
- İctimai şuraların iclaslarına ekspertlər və valyuta nəzarəti qurumlarının və metrologiya, sertifikatlaşdırma, qanunvericilik və icra qurumlarının nümayəndələrini, iş adamlarını, kütləvi informasiya vasitələrinin nümayəndələrini dəvət edirlər;
- İctimai şuraların fəaliyyəti üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada digər qurum və təşkilatlardan, şəxslərdən məlumat tələb edib və alırlar, gömrük orqanlarından zəruri məlumatlar istəyirlər;
- müvəqqəti və daimi fəaliyyət göstərən komissiyalar yaradılır.

## 5.İctimai şuraların rəhbərliyi

5.1. İctimai şuralar onların sədrləri tərəfindən idarə olunurlar.

5.2. Dövlət Gömrük Komitəsi yanında yaradılan İctimai şuraya DGK-nın sədri və ya sədr müavini, gömrük orqanları yanında yaradılan İctimai şuralara gömrük orqanlarının rəisi və rəis müavinləri sədrlik edirlər.

5.3. İctimai şuraların sədrləri:

- İctimai şuraların işinə rəhbərlik edirlər;
- İctimai şuraların iclaslarını aparırlar;
- İctimai şuraların fəaliyyətlərinin əsas istiqamətləri üzrə təkliflər hazırlayırlar;
- Komissiyaların fəaliyyətlərini tənzimləyirlər;
- Dövlət qurumları və digər təşkilatlarla münasibətdə İctimai şuraları təmsil edirlər;
- İctimai şuraların iclaslarının qərarlarının həyata keçirilməsinə nəzarət edirlər.

## 6. İctimai şuraların üzvləri

6.1. İctimai şuralar iclaslarında İctimai şuraların üzvləri şəxsən iştirak edirlər. Ayrı-ayrı hallarda İctimai şuraların üzvləri iclaslarda baxılacaq məsələlərin müzakirə edilməsi hüquqi ilə öz nümayəndələrini göndərə bilərlər.

6.2. İctimai şuraların üzvləri İctimai şuralardan çıxmaq hüququna malikdirlər. Bu halda onlar İctimai şuraların sədrlərinə öz qərarları haqqında ərizə ilə müraciət etməlidirlər. Ərizə iclasda müzakirə edilib müvafiq qərar qəbul edildikdən sonra onlar İctimai şura üzvlüyündən çıxarılmış hesab edilirlər.

6.3. İctimai şuraların üzvlərinin aşağıdakı hüquqları vardır:

- İctimai şuraların iclaslarında baxılan məsələlərin hazırlanmasında, müzakirəsində və qərar qəbul edilməsində iştirak etmək;
- xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, xarici iqtisadi fəaliyyətləri inkişaf etdirilməsi, xarici iqtisadi fəaliyyəti tənzimləyən və üzərində nəzərat aparan dövlət qurumlarının qarşılıqlı fəaliyyətlərinin təkmilləşdirilməsi sahəsində İctimai şuraların iclaslarına plandan kənar qaydada baxılması üçün məsələlər çıxarmaq;
- İctimai şuraların iş planlarının hazırlanmasında və müzakirə edilməsində iştirak etmək;
- İctimai şuraların iş planlarının hazırlanmasında və müzakirə edilməsində iştirak etmək;
- İctimai şuraların katiblərindən İctimai şuraların işi ilə bağlı zəruri məlumatların və materialları almaq;

6.4. İctimai şuralarının üzvlərinin vəzifələri aşağıdakilardır:

- İctimai şuraların iclaslarında iştirak etmək;
- İctimai şuraların tapşırıqlarını yerinə yetirmək;

- İctimai şuraların iclaslarında iştirak edə bilmədikləri hallarda İctimai Şuraların katiblərini bu haqda məlumatlandırmaq;
- müzakirəyə təqdim olunmuş materiallara baxmaq, onlara dair rəy və təkliflər bildirmək;
- İctimai şuraların iclaslarında baxılan məsələlərlə əlaqədar obyektivlik göstərmək.

6.5. Aşağıdakı hallarda İctimai şuraların sədrləri üzvlərin İctimai şuralardan çıxarılmalarına dair məsələlər qoyula bilərlər:

- İctimai şuraların üzvləri bu Əsasnamənin tələblərini yerinə yetirmədikdə;
- İctimai şuraların üzvləri sistemli olaraq İctimai şuraların iclaslarında iştirak etmədikdə;
- İctimai şuraların üzvləri İctimai şuraların fəaliyyətlərinə mənfi təsir göstərən hərəkətlər etdikdə.

## 7. İctimai şuraların iclasları

7.1 İctimai şuraların iclasları onların ali orqanıdır.

7.2. İctimai şuraların iclasları İctimai şuraların Sədrləri tərəfindən təsdiq olunmuş plana əsasən həyata keçirilir. Planda iclaslarda baxılacaq məsələlərlə əlaqədar materialların hazırlanmasına dair məsul konkret icraçılar göstərilir.

7.3. İctimai şuraların cari işlərini İctimai şuraların katiblikləri həyata keçirirlər.

7.4. Hər iclasdan əvvəl baxılacaq məsələ, materiallar və iclasın keçiriləcəyi vaxt və tarix barədə məlumatlar İctimai şura üzvlərinə katiblik tərəfindən çatdırılır.

7.5. Kargüzarlıq işlərinin aparılmasına, sənədlərin saxlanmasına görə məsuliyyəti İctimai şuraların katibləri daşıyırlar.

## 8. İctimai şuraların qərarları

8.1. İctimai şuraların qərarları tövsiyəvi və məsləhət xarakter daşıyır.

8.2. İctimai şuraların katibləri protokol tərtib edirlər, iclasların sonunda qəbul olunan qərarları formalaşdırırlar. İclasların protokolları İctimai şuraların sədrləri tərəfindən imzalanır.

8.3. İctimai şuraların qərarlarının icrasına nəzarət İctimai şuraların katibləri tərəfindən həyata keçirilir.